


*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxilə qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-yro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sa-dir. COP (Conference of Parties) abreviaturunun ingilis ilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

COP29
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası









# COP29: Planetin gələcəyi üçün ümid işığı

***Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bağlanış plenar iclası ilə tarixi hadisəyə çevrildi.***

Beynəlxalq liderlər, diplomatlar və iqlim mütəxəssisləri saatlarla davam edən danışıqlarda ədalətli və davamlı razılaşma əldə etmək üçün müzakirələr aparıblar. Tədbir çərçivəsində keçirilmiş müzakirələrin hesabatları və iclasların protokolları, həmçinin razılaşdırılmış sənədlər təsdiqlənib. COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan edilməsi barədə qətnamə qəbul olunub.

Plenar iclasda Paris Sazişinin 6-cı maddəsi tam təsdiq olunub. Bu, yüksək inteqrasiya olunmuş karbon bazarları üzrə danışıqların onillik müddətdən sonra başa çatmasıdır. Bu, COP29 Sədrliyinin əsas prioritetlərindən biri idi və Tərəflər intensiv ikitərəfli texniki və siyasi danışıqlar vasitəsilə sözügedən məsələni mühüm nailiyyətə doğru apardı. Bu strategiya illərlə davam edən çətin vəziyyətə son qoymağa kömək etdi və Paris Sazişinin sonuncu vacib bəndini yekunlaşdırdı. Altıncı maddə iqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlığa edən ölkələri etibarlı və şəffaf karbon bazarları ilə təmin edir. Bu, transsərhəd əməkdaşlıq sayəsində ölkələrin milli iqlim planlarının (NDCs) həyata keçirilməsi xərclərini ildə 250 milyard ABŞ dollarına qədər azaldacağı gözlənilir. COP29 Sədrliyi Tərəfləri daha böyük iqlim ambisiyalarına yenidən investisiya yatırmağa təşviq edir. Fevral ayında təqdim ediləcək növbəti nəsil NDCs-lər dünyanın 1,5 selsi hədəfinə olan ümidləri üçün mühüm əhəmiyyət daşıyır. İqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birinin həlli sayılan 6-cı maddə üzrə razılıq kömür zavodlarının istismardan çıxarılmasını, külək stansiyalarının qurulmasını və meşələrin salınmasını əhatə edir. Bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir. Altıncı maddə üzrə yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin qorunmasında mühüm rol oynayacaq. Bu qərar real, yoxlanıla və ölçülə bilən emissiyaların azaldılması və aradan qaldırılması vasitəsilə karbon bazarlarının şəffaflığını və dayanıqlılığını təmin edərək, qlobal iqlim investisiyalarına təkan vermək üçün böyük potensialı ortaya qoyacaq. Qəbul edilmiş təlimatlar və qaydalar karbon layihələrinin praktikliyini və inklüzivliyini təmin etmək üçün nəzərdə tutulub. Həmin təlimat və qaydalarda insan hüquqlarına hörmət bəslənilir və davamlı inkişafa dəstək göstərilir, o cümlədən ölkələrə və layihə tərtibatçılarına Paris Sazişi çərçivəsində əməkdaşlıq etmək imkanı verilir.

Tədbirdə inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və kiçik ada dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən tarixi qərar qəbul olunub. Bu, dövlətimizin başçısı tərəfindən iqlim dəyişmələrinin fəsadlarının kiçik ada ölkələrinə törətdiyi çətinliklərin həlli məsələsinin COP29 Sədrliyinin prioriteti kimi müəyyən edilməsinin göstəricisidir. Xatırladaq ki, İtki və Zərər Fondunun (Loss and Damage Fund) yaradılması Misirdə keçirilmiş COP27 zamanı qərara alınmışdır. Fond iqlim dəyişmələrinin təsirlərinə məruz qalmış həssas ölkələrə maliyyə yardımı göstərmək məqsədi daşıyır. Birləşmiş Ərəb Əmirliklərində keçirilmiş COP28 zamanı Fondun fəaliyyətə başlaması ilə bağlı qərar qəbul olunub. COP29 Sədrliyi İtki və Zərər Fondunun fəaliyyətinin təmin edilməsi istiqamətində mühüm addımlar atdı, İdarə Heyəti və Dünya Bankı ilə sıx əməkdaşlıq edildi. Cari ilin sentyabrında Fondun İdarə Heyətinin Bakıda keçirilmiş 3-cü iclası zamanı fəaliyyətə başlaması üçün vacib tədbirlər görüldü və icraçı direktoru təyin edildi. Həmçinin İtki və Zərər Fondu ilə bağlı bir sıra mühüm sazişlər imzalandı. Bunlar Fondun İdarə Heyəti ilə Dünya Bankı arasında "Qəyyumluq Sazişi" və "Katibliyin Ev Sahibliyi Sazişi", eləcə də Filippin Respublikası arasında imzalanmış "Ev Sahibi Ölkəyə dair Saziş"dir. Hazırda Fonda vəd edilən ümumi maliyyə dəstəyinin məbləği 730 milyon ABŞ dollarından artıqdır. Əldə edilən bu nailiyyətlərlə İtki və Zərər Fondu 2025-ci ildən etibarən layihələri maliyyələşdirə biləcək. Bu, Azərbaycanın COP29 Sədrliyinin növbəti uğurudur.

Plenar iclasda Paris Sazişinin 13-cü maddəsinə uyğun olaraq İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması, qabiliyyət quruculuğu sahəsində inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki dəstəyin göstərilməsinə dair qərar qəbul olunub. Qərar Paris Sazişinin 13-cü maddəsi ilə yaradılan Zənginləşdirilmiş Şəffaflıq Çərçivəsinin həyata keçirilməsi, o cümlədən inkişaf etməkdə olan ölkələr tərəfindən İkiillik Şəffaflıq Hesabatlarının hazırlanmasına maliyyə və texniki dəstəyin göstərilməsini ehtiva edir. Sənəddə COP29 Sədrliyinin təşəbbüsü olan Bakı Qlobal İqlim Şəffaflığı Platforması da yer alıb. Həmin qərarda COP29 Sədrliyinin iqlim şəffaflığı sahəsində həyata keçirdiyi tədbirlər, o cümlədən bir sıra forumların təşkili, COP29-un iqlim şəffaflığı sahəsində əsas irsi olan bu platformanın yaradılması böyük əhəmiyyət kəsb edir.

Plenar iclasın ən önəmli qərarı yeni iqlim hədəfinin müəyyən olunmasıdır. Belə ki, COP29-un əsas prioriteti olan iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi qəbul olunub. Bu qərar inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığın yeni mərhələsini açır. Razılaşmaya əsasən inkişaf etmiş dövlətlər inkişaf etməkdə olan ölkələrə iqlim tədbirləri üçün hər il 100 milyard ABŞ dolları əvəzinə, 2035-ci ilə qədər 300 milyard ABŞ dolları vəsait ayırmağı öhdəliklərinə götürdülər. Bu vəsait təbii fəlakətlərin zərərini minimuma endirmək, bərpaolunan enerji keçidini dəstəkləmək və yoxsulluğu azaltmaq üçün istifadə olunacaq.

Plenar iclasda həmçinin "Gender və iqlim dəyişikliyi", "Uyğunlaşmaya dair qlobal hədəf", "Şarm əl-Şeyx yumşaltma ambisiyaları və icra iş proqramı" da daxil olmaqla, bir sıra digər sənədlər təsdiqlənib.

Bağlanış mərasimində BMT Baş katibi Antonio Quterreşin ümid dolu çıxışı sammitin zirvə nöqtəsi oldu. Baş katib həm hökumətləri, həm də qlobal ictimaiyyəti daha iddialı addımlar atmağa çağırdı. O, xüsusilə G20 ölkələrinin liderliyinin vacibliyini vurğuladı:

"G20 ölkələri, emissiyaların əsas mənbələri olaraq iqlim mübarizəsində də liderlik etməlidir. Fosil yanacaq dövrü sona çatır - bu, iqtisadi və ekoloji zərurətdir. Yenilənəbilən enerji mənbələri ilə irəliləmək, iqtisadiyyatın hər bir sahəsini əhatə etməli və ədalətli keçidi təmin etməlidir".

Antonio Quterreş dövlətimizi COP29 sammitinə ev sahibliyi etdiyinə, tədbirin yüksək səviyyədə təşkilinə görə xüsusi dəyərləndirdi, cənab Prezident İlham Əliyevə, COP29 prezidenti Muxtar Babayevə və onların komandalarına təşəkkürünü bildirdi: "Bakı iqlim mübarizəsində beynəlxalq həmrəyliyin və əməkdaşlığın simvoluna çevrildi. Azərbaycan bu sammitlə qlobal problemlərin həllində nə qədər əhəmiyyətli rol oynadığını bir daha sübut etdi".

A.Quterreş iqlim tədbirlərinin sürətləndirilməsinin vacibliyini qeyd edərək bütün ölkələri öz iqlim planlarını yeniləməyə və daha iddialı hədəflər müəyyən etməyə çağırdı. O, COP29-da əldə olunan razılaşmanı bir başlanğıc nöqtəsi adlandıraraq qeyd etdi ki, bu razılaşma yalnız bir təməl olmalıdır və hər bir ölkə bunun üzərində işləyərək öz iqlim hədəflərini yenidən nəzərdən keçirməli, daha irəliyə getməlidir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil COP29-da iqlim maliyyə hədəfinin 3 dəfə artırılması barədə razılığın əldə edildiyini, bunun iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalanlara dəstək üçün önəmli olduğunu deyib. O, təxminən 10 il davam edən çətin fəaliyyətdən sonra COP29-da qlobal karbon bazarı barədə razılığın əldə olunmasını yüksək qiymətləndirib.

COP29-un Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev son iki həftə ərzində tərəflərin çox gərgin işlədiyini, heç kimin Bakıdan əsas məqsədimizlə bağlı yaxşı nəticə əldə etmədən getmək istəmədiyini, dünyanın diqqətinin COP29-a kökləndiyini bildirib.

Braziliyanın ətraf mühit naziri Marina Silva qeyd edib ki, ölkəsində keçiriləcək COP30 konfransı bütün dövlətlər arasında möhkəmlənəcək əməkdaşlığın nümunəsi olmalıdır. O qeyd edib ki, bunun baş verməsi üçün COP29-da aparılan müzakirələr zamanı qarşıya çıxan çətinliklərə baxmayaraq, yekun razılaşma əldə etməli, gücümüzü birləşdirməliyik.

COP29 Bakı sammiti iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə yeni bir səhifə açdı. Uzun sürən müzakirələr göstərdi ki, ən mürəkkəb problemlər əməkdaşlıq və birgə iradə ilə həll edilə bilər. Sammitdə qəbul olunan razılaşma yalnız inkişaf etmiş ölkələrin deyil, planetin gələcəyi üçün ümid işığıdır.

**Bayram SALMANOV,**
**"Respublika".**